# Abay satiralarında sosial-siyasi problemlərin əksi



Abayın lirik şeirlərinin əksəriyyəti 1880-ci illərdə yaradılmışdır. Onlar əsasən qazax xalqının tarixi taleyinə, onun özünəməxsus həyat ukladının və məişətinin özəlliklərinə həsr olunmuşdur. Lirikaya müraciət Abay üçün əsasən öz hiss və həyəcanlarının, sevgi və iztirablarının ifadə olunması üçün gərək idi.

Abayın ətraf aləmə münasibəti və onun mənəvi dünyası digər əsərlərindən daha aydın və parlaq şəkildə şairin satiralarında özünü əks etdirirdi. Bu, ilk növbədə onunla bağlı idi ki, Abay poeziyası məzmun baxımından yetərincə zəngin idi. Həmin əsərlərdə şair sosial-siyasi mövzuları, satirik-sarkastik ifadəni, fəlsəfi düşüncələri, peyzaj təsvirlərini, sevgi, dostluqla bağlı hiss və həyəcanlarını, poeziya, elm, həyatla bağlı duyğularını verməyə çalışırdı. Bununla bərabər, Abay insanının mənəvi idealına özünəməxsus baxış sərgiləyirdi. Bütün qeyd etdiyimiz aspekt və istiqamətlərdən ən aparıcısı, əlbəttə, Abayın sosial mövzulu satirik əsərləridir. Şair öz dövrü üçün xarakterik olan cəmiyyətdəki eybəcərliklərə kənar müşahidəçi kimi qalmırdı. Əsərlərində tənqid obyekti kimi daha çox bəylərin xəsisliyi, məmurların qanun-qaydalara məhəl qoymaması və s. ilə yanaşı, həm də hakim dairələrin özbaşnalığı onu olduqca narahat edirdi. Bunu biz şairin "Sözündə və işində çirkin", "Ruhunda həyatdan bir nişanə yox", "Budur qocalıq gəldi", "Axırı volostnoy seçildim", "Arzuların çətin keçə həyata" və s. yaxşı görürük. "Axırı volostnoy seçildim" şeirinin məzmununa nəzər salaq:

Axır volostnoy seçildim...
Ancaq.
Yoxsula çevrildim verdikcə rüşvət.
Əridi hürgücü dəvələrimin
Atlarımın yalı satıldı xəlvət.
Xərcim çox çıxsa da, bu camaata
Rəhbərlik, eyləmək daha müsibət.
Dövlətin hər sözü qanundur mənə,
Ona boyun əymək borcumdur əlbət.
Əgər kasıb-kusub bir şey istəsə,
Özümü karlığa vururam fəqət...
Elə ki, eşitsəm iclas olacaq
Sarar ürəyimi bir anda dəhşət
İçimi çulğayan qara-qorxunu
Xalqdan gizlətməkçün gülürəm əlbət.

Bu misralarda Abayın ictimai-siyasi məsələlərə, xalqın azadlıq və müstəqillik ideyalarına və amallarına nə qədər mühüm yer verdiyini görürük. Abayın əsərlərində zaman özünəməxsus hakim rolunu oynamaqdadır. Və qeyd etməliyik ki, zaman Abayın düşüncəsində, onun bədii təfəkkürünün boy verməsində təsvirin obyekti və subyekti kimi çıxış edir. Daha doğrusu, zaman kateqoriyası gedən proseslərin dərkində mühüm rol oynayır.

Abay insan azadlığını və müstəqilliyini dərindən nəzərdən keçirməklə, həm də onları qazax xalqının dövlətçiliyi ilə bağlayırdı. Eyni zamanda qazax cəmiyyətində sosial-siyasi, ictimai-iqtisadi, mədəni-mənəvi mühitdə gedən proseslərə həssas yanaşmaqla, onları şərq və rus poeziyasındakı ənənələrlə bağlayıb İntibah tipli şair olaraq ortada dayanırdı.

Abay şair-mütəfəkkir, həqiqət və səadət axtarışına çıxmaqla özünün ciddi dəlici əsərlərində istismarçılara və soyğunçulara, oğrulara və rüşvətxorlara, riyakarlara və şər-böhtan daşıyıcılarına qarşı amansız mübarizə aparırdı. Onun şeirlərinin başlıca hədəfi xalqın başına olmazın oyunlarını açanlar idi, xalq kütlələri ilə istismarçı sinif arasındakı uçurum onun təsvir və tənqid obyekti kimi çıxış edirdi. "Xoş söz eşitmədim mən" şeirindən nümunəyə diqqət yetirək:

Xoş söz eşitmədim mən
Nə bolısdan*, nə bəydən
Heç harda ömrüm boyu
Hara baxırsan onlar –
Bu azğınlar, harınlar
Xalqı talayıb, soyur.
...Yazıq xalq, parçalanıb,
Ümidlər haçalanıb.
Yalvarıb hakimlərə,
Bir xoş söz, ya təsəlli
Ala bilmədik, bəli.
Dərd qatışdı dərdlərə.

Abay bu şeiri 1890-cı ildə qələmə almışdı. Və yeri gəlmişkən bildirək ki, həmin illərdə Abay xalqın gün-güzəranını əhatəli təsvir edən şeirlərə daha çox yer verirdi. Təqdim etdiyimiz şeirdə Abay xalqın həyatını zülmətlə müqayisə etməklə, güclünün gücsüzü didməsini, varılıların it kimi qudurmasını, xalqa yalan nağmələr oxumasını, xalqın ehtiyac içində vargəl etməsini, hökmdarların zalımlığını, nahaqqın hər yeri basdığını, xalqın talanıb soyulmasını, ağzına top qoyulmasını və s. olduqca uğurlu ifadələrlə oxucunun gözü qarşısında nümayiş etdirir.

Abay poeziyasının satirik və dəlici gücü müəllifin yaratdığı nümunələrin hər bir elementində özünü biruzə verir. Abayın əksər satirik şeirlərində nahiyə rəislərinin fırıldaqçılığı, mollaların, bəylərin sadə insanların başına açdığı oyunlar onların bütün eybəcərliklərini gülüş hədəfinə çevirmək üçün əsas verir. Hər hansı bir çatışmazlıqda, hətta ən kiçik bir ədalətsizlikdə şairin uzaqgörənliyi böyük sosial bəlaların ortaya qoyulmasına səbəb olurdu.

Abayın satirik qələmi bizə Qasım bəy Zakir, M.F.Axundzadə, C.Məmmədquluzadə, M.Ə.Sabir, Qoqol, Saltıkov-Şedrin, A.Qəhhar, M.Auezov və başqa bu kimi qələm sahiblərinin bədii yanaşma tərzini yada salmağa sövq edir.

---

-

Abay adlarını çəkdiyimiz sənətkarlar kimi öz poeziyasında sanki bütöv bir satirik obrazlar dünyası yaradır ki, həmin dünyada qazax aulu bütün ziddiyyətləri və çılpaqlığı ilə göz önündə canlandırılır. Abay hər bir konkret halda heç də qəhrəmanları öz adları ilə çağırmasa da, onlar o qədər konkret və görünəndirlər və elə bir şəkildə təsvir olunurlar ki, özündən asılı olmayaraq onların portretini, xarakterini, davranışını bütün parlaqlığı ilə göz önündə yarada bilirsən. Belə olduqda sanki qarşımızdan Qoqolun "Müfəttiş-"inin və "Ölü canlar"ının, Saltıkov-Şedrinin "Bir şəhərin tarixi", Q.Zakirin "Xəbər alsan bu vilanın əhvalın" əsərlərinin mənzərəsi keçir. Bu baxımdan "Aclar istəyirlər dadlı bir yemək" şeiri də səvciyyəvidir:

Aclar istəyirlər dadlı bir yemək,
Toxlara naz, nemət, mey, məzə gərək.
Dövlətin yarısı toxluqdur-qazax.
Dadlı yeməklərdən yan keçməyəcək.
Ac qazax, ölümdən qorunmaqçün sən –
Dolaşıb sərgərdan ruzi gəzirsən.
Dadını bilmirsən ətin, kumusun,
Taleyin zərbinə nədən dözürsən?

Müəllif öz şeirlərində zamanın və məkanın tipikliyini yetərincə uğurlu yaradır. Abayın təsvir olunanlara münasibəti mücərrəd yox, tamamilə konkretdir. Həmin dövrdəki qazax gerçəkliyi üçün mənfi qəhrəman obrazının yaradılması da kifayət qədər səciyyəvi idi.

Abayın bu tipli əsərlərindəki satirik, sarkastik obrazlar istənilən qədər bədii ümumiləşdirmə gücünə malikdirlər. Onlar oxucu üçün başa düşülən və səmərəlidir. Onlar həqiqəti əks etdirir və müəllifin təsvir etdiklərinə inamı ifadə etməkdədir. Çünki dövrün mövcud olan real tipik xarakterləri həmin əsərlərdə yetərincə görümlüdür. Abay əsərlərinin belə məziyyətlərindən bəhs edərkən biz "Kojekbaya" şeirinə müraciət etməyi daha gərəkli hesab edirik:

Özgə yerdən, özgə eldən
Seçdiyin dost, sevdiyin dost,
Ürəyini tapşırdığın,
Sirlərini dediyin dost
Bir gün səni
Dar ayaqda atıb qaçar.
Keçənləri unudaraq
Sənin bakir sirlərini
Faş eləyər, yada açar.
...Həqiqəti tapdalayıb
And içəcək , kafər oğlu,
Allaha da, Tanrıya da.
Sədaqətli bir dost kimi
Gələr-gedər evinə də
Hey dəm vurar o yenə də
Yoldaşlıqdan, sədaqətdən,
Quyu qazar altdan-altdan
Yenə girib araya o,
Qohumları dalaşdırar.
Tanışları salışdırar
Elə qohum-əqraba var:
Yaxan ələ keçən kimi
Hər tərəfdən tökülüşüb
Bör-börkünü yırtacaqlar tula kimi.

Bu şeirdə müəllif xeyli üzdəniraq insanların – satqınların, riyakarların, qorxaqların, böhtançıların, rüşvətxorların obrazlar qalereyasını yaratmışdı. Abay bu tipli insanları rüsvay edərək onların həm də digər çoxsaylı naqisliklərinə də göz yummur. Bütün bu təsvirlərdən yaxşı görünür ki, Abay öz sosial-siyasi satira obyektlərini qamçılamaqla qazaxlara tamamilə ədalətə, haqqa söykənən daha firavan həyat arzulamağı üstün tutduğunu göstərirdi. Abayın həmin dövrdəki idealları birbaşa xalq istəyinə bağlılığı əks etdirməklə, onun tamamilə mütərəqqi milli maraqlardan çıxış etdiyini sübut edirdi.

Qazax səhrasının, məişətinin, halının və xasiyyətinin, mənəvi-əxlaq normalarının əksər tərəfləri Abayın əsərlərində öz dərin və qəribə təsvirini tapırdı. Onun təsvir palitrası yetərincə çoxrəngli və bərbəzəkli idi. Bax, bütün bu qeyd etdiklərimizə görə, Abay istedadlı lirik şair olması ilə yanaşı, həm də ədəbiyyatşünas-tənqidçilər tərəfindən böyük satirik kimi nəzərdən keçirilirdi. Onun siyasi-ictimai satirası, hər şeydən öncə, özünün satirik süngüsü ilə diqqəti cəlb edirdi. Satirik əsərlərinin əksəriyyətinin tənqid hədəfi nahiyə rəisləri və onların məkirli siyasəti idi. Böyük mütəfəkkirin yaradıcılığının ümumi konturlarına nəzər saldıqda görürük ki, onun bütün fəaliyyəti həyatsevərliyə və insansevərliyə köklənmişdi. Buna görə də o, insan hüquqlarının qorunmasını hər şeydən yüksəkdə qoyurdu. Buna görə də o, insanların mənəvi baxımdan şikəst edilməsinə, eybəcər hala salınmasına, hüquqlarının tapdanmasına laqeyd qala bilmirdi. Abayın poetik-fəlsəfi düşüncəsində və idealında yalnız gözəl qəlbli azad insan özünə yer ala bilər, yaşayardı. Onun konsepsiyası hər şeydən öncə, "İnsanı sev, gözəlliyi sev" düşüncəsinə söykənirdi.

Qeyd etdiklərimiz bir daha təsdiqləyir ki, Abay bütün yaradıcılığı ilə qazax ədəbiyyatında ona qədər mövcud olan şərti poeziya kanonlarını dağıtmaqla, poetik düşüncənin ənənəvi dar hədlərini uçurub, qazax ədəbiyyatına yeni mövzular, ideyalar, yeni axın gətirdi, qazax xalqının bütün təbəqələrinin həyat şəraitini və mənzərələrini pafosdan və patetikadan xilas etdi. Qazax ədəbiyyatında həyatın təsvirinin prinsipial baxımdan yeni mənzərəsini satirik qələminin gücü ilə yaradıb, milli düşüncənin özünəxas tərəflərini ortaya çəkdi.

***2020***



***Şəbnəm MƏMMƏDOVA,***
***filologiya üzrə fəlsəfə doktoru***